# Səbrimizi sınağa çəkməyin!

## Erməni vandallığı və revanşizminin yeni təzahürləri

Haylar İrəvanda daha bir şərəfsizlik etdilər.

İştirakçıların təhlükəsizliklərinə qabaqcadan zəmanət verdikləri beynəlxalq idman tədbiri zamanı bayrağımızı əldən qaparaq yandırdılar.

Bununla növbəti dəfə:

- Alçaq və yalançı olduqlarını dünyaya göstərdilər;
- Faşist xislətində qaldıqlarını bütün cahana nümayiş etdirdilər;
- Hələ ağıllanmadıqlarını, qisasçılıq hissi ilə yaşadıqlarını və yandıqlarını sübut etdilər.

**Həm də bir daha yalnız dinc, silahsız, sülh niyyətli insanlar qarşısında "qəhrəmanlıq" edə bildiklərini ortaya qoydular.**

**Əsl ermənilik də bax budur!**

❖❖❖

*İndi bu "igidliyi" edən haylar dünən qarşımızda diz çökərək müharibəni dayandırmağımız üçün bizə yalvarırdılar.*

*Dünyanın bir sıra dövlət başçılarını minnətçi salırdılar.*

*Onun-bunun dabanını yalayaraq bizdən aman diləyirdilər.*

**Təzədən dönüb "kişi" oldular?!**

*Yoxsa II Qarabağ müharibəsində onlara verdiyimiz dərsləri, necə darmadağın edib "dəmir yumruq"la başlarını əzməyimizi unudublar?!*

Onda tülküyə dönmüşdülər, canlarını qurtarmaq üçün girməyə deşik axtarırdılar.

**Təzədən "qəhrəman"a çevrilən bu dığalar iki il əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı möhtəşəm ordu qarşısında aciz və miskin vəziyyətdə qalmışdılar.**

*Üçrəngli qələbə bayrağımızın:*

- Füzulidə
- Cəbrayılda
- Zəngilanda
- Qubadlıda



- Hadrutda
- Ağdamda
- Laçında
- Kəlbəcərdə
- Şuşada

ucaldılmasının qarşısını heç bir vasitə ilə ala bilmədilər!

**"Məğlubedilməz" adlandırdıqları orduları çox qısa bir vaxtda on bir min nəfər fərarisi olan qorxaqlar dəstəsinə çevrildi!**

*Anna Akopyanın "yaratdığı" qadın "döyüşçüləri"nin ümidinə qalmışdılar.*

*Yoxsa "kişilik"lərini sülh elçiləri sayılan idmançılara, əsir düşmüş silahsız əsgərlərə göstərməyə başlayıblar?!*

Niyə unudurlar ki, bizim:

- 44 gün ərzində düşməni "dəmir yumruq"la əzib təslim edən əsgər və zabitlərimiz;
- ən çətin döyüş tapşırıqlarını çox asanlıqla yerinə yetirən komandolarımız;
- yalançı qəhrəmanların canına vic-vicə salan xüsusi təyinatlılarımız;
- başlarına hər yerdə və hər zaman od yağdıra bilən pilotsuz uçuş aparatlarımız var!

❖❖❖

Azərbaycan sülh istəyir, sülh sazişi bağlamaq istəyir!

Amma bunu alicənablıqla güzəştə gedərək, humanizm göstərərək edir.

**"Dəmir yumruq" hər zaman hazır vəziyyətdədir!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev daim dediyini edəndir!**

*Sonuncu şərti isə bu oldu:*

*Azərbaycanın bütün şərtləri sözsüz yerinə yetirilməlidir!*

Başqa yol yoxdur!

Kiməsə, nəyəsə arxayın olub axmaq fikirlərə düşmək mənasızdır!

- Nə "böyük bacı"ya;
- Nə Avropadan gəlmiş müşahidəçilər dəstəsinə;
- Nə "köhnə dostlar"a;
- Nə "din ayrı" qardaşlara;
- Nə təzə əldə olunan xırda-para silahlara güvənmək heç bir fayda verməyəcək!

**Onsuz da Azərbaycan istədiyini edib və edir!**

**Onsuz da Müzəffər Ali Baş Komandan İlham Əliyev dediyini edib və son xəbərdarlıqlarından da hamının xəbəri var!**

*Səbir kasamızı daşırtmayın!*

*Verdiyimiz "güzəşt günləri"ndən sui-istifadə edərək məsələni uzatmayın!*

Nə özümüzü, nə də səbrimizi cılız hərəkətlərlə sınağa çəkin!

**Hər şey Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi olacaq!**

**Hər şey Azərbaycan xalqının istədiyi kimi olacaq!**

Daha sizi 27 il gözləyəsi deyilik!

*Revanşist, qorxaq, gündə bir ağa tapıb ona yalmananların, gündə bir söz verib sonra dalından qaçanların bircə əlacı qalır:*

*"Dəmir yumruq"!!!*

O da bizdədir!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamındadır!**

**Bəxtiyar SADIQOV**

